**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

**Çıxarış**

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Naxçıvan Muxtar Respublikasında inzibati orqanların Təsnifatı"nın təsdiq edilməsi haqqında" 2007-ci il 5 sentyabr tarixli 69 nömrəli, "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" 2011-ci il 8 dekabr tarixli 103 nömrəli, "Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2013-cü il 23 yanvar tarixli 11 nömrəli, "Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin ştat strukturunun təsdiq edilməsi haqqında" 2013-cü il 12 iyul tarixli 74 nömrəli, "Naxçıvan Muxtar Respublikasının ərazisində əmək miqrasiyası kvotasının müəyyən edilməsi Qaydası"nın təsdiq edilməsi barədə" 2022-ci il 5 sentyabr tarixli 172 nömrəli qərarlarında dəyişiklik edilməsi, "Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya Xidmətində qulluq keçən xüsusi rütbəsi olan işçilərin xüsusi geyim forması və fərqlənmə nişanları ilə təmin edilməsi normaları"nın təsdiq edilməsi barədə" 2011-ci il 10 fevral tarixli 26 nömrəli, "Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Qanunsuz Miqrantların Saxlanılması Mərkəzinin daxili intizam Qaydaları"nın təsdiq edilməsi haqqında" 2016-cı il 30 sentyabr tarixli 96 nömrəli, "Naxçıvan Muxtar Respublikasına səfər edən İran İslam Respublikası vətəndaşlarının viza tələbindən azad edilməsi haqqında" 2019-cu il 26 noyabr tarixli 165 nömrəli qərarlarının və 2022-ci il 9 sentyabr tarixli 119s nömrəli Sərəncamının ləğv edilməsi barədə**

"Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 mart tarixli 560 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət

Miqrasiya Xidməti haqqında Əsasnamə"də və 2010-cu il 26 yanvar tarixli 211 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının miqrasiya orqanlarında ali xüsusi rütbəli vəzifələrin siyahısı"nda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 may tarixli 2148 nömrəli Fərmanına əsasən, "Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin ləğv edilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin bəzi fərman və sərəncamlarında dəyişiklik edilməsi və bəzi fərman və sərəncamlarının ləğv edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 03 iyun tarixli 176-VI FR nömrəli Fərmanının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

2. "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 8 dekabr tarixli 103 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın 3.1.26-cı yarımbəndi ləğv edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Elektron xidmət növlərinin Siyahısı"nın 25-ci hissəsi ləğv edilsin.

3. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2013-cü il 23 yanvar tarixli 11 nömrəli Qərarı ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.3-cü bənddən "Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya Xidməti," sözləri çıxarılsın;

3.2. həmin Qaydaya əlavə - "Elektron anketin forması"nın 16-cı və 17-ci hissələrindən ", əmək miqrantı olub-olmaması barədə" sözləri və ", Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya Xidməti" sözləri çıxarılsın.

7. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, "14" iyun 2023-cü il

№ 97